

# *Sona ÇƏRKƏZ-75*

Hörmətli Sona xanım!

Sizi - istedadlı yazıçı və publisisti 75 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz indiki Bakı Slavyan Universitetini bitirib, əvvəlcə orta məktəbdə dərs demiş, 1972-ci ildən taleyinizi Bakı Dövlət Universiteti ilə bağlamısınız. BDU nəşriyyatında korrektor, Humanitar fakültələr üzrə rus dili kafedrasında baş laborant vəzifələrində işləmisiniz. Hazırda Humanitar fakültələr üzrə rus dili kafedrasının baş müəllimisiniz. Beynəlxalq konfranslarda ölkəmizi layiqincə təmsil etmiş, treninqlər aparmısınız. Siz elmi-pedaqoji fəaliyyətlə yanaşı, bədii yaradıcılıqla da ciddi məşğulsunuz. Səmimi, lirik şeirləriniz poeziyasevərlərin ürəyinə yol tapır. Publisistik yazılarınız mətbuatda dərc olunmuş, kitab şəklində oxuculara təqdim edilmişdir. "Çərkəzli. Çərkəzsiz günlərim", "Nələr gördüm dünya səndə", "Sənin xatirinə", "Sənsiz səninlə", "Bəxtimə düşən dünya", "Taleyim mənim", "Sənsiz gördüklərim yuxu olaydı", "Ağla, iydə çiçəyi", "Xatirələr karvanı", "Ölə bilmədim", "Daş olmaq istəyirəm", "İkimizin kitabı", "Ben dünyayı tanıyorum", "Ölüm son demək deyil", "Ömrün anları", "Bəxtəvərlik yuxu imiş", "Sözdür mənim sirdaşım" kimi kitabların müəllifisiniz.

Hörmətli Sona xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2023- cü il.- 27 may.- S. 27.**